

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Heydər Əliyev


# MÜBARİZ KEŞİKDƏ

3 sentyabr 2020-ci il
Cümə axşamı

№ 31 (3496)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# VƏTƏNDAŞLARIN SAĞLAMLIĞI VƏ RİFAHI DİQQƏT MƏRKƏZİNDƏDİR

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hospitalın açılışında videoformatda iştirak edib.

Prezident çıxışı zamanı pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisinin geniş vüsət aldığını, bu məqsədlər üçün böyük vəsait ayrıldığını, bütün imkanların səfərbər edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, əvvəlki mövcud çarpayı fondu bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparmağa imkan vermirdi. Lakin cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırıldı.



Dövlət başçısı daha yeddi modul tipli xəstəxananın tikintisinin nəzərdə tutulduğunu, amma hazırda buna ehtiyac olmadığını əlavə edib. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa oluna bilər: "...Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz bu addımı vaxtında atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər bu xəstəxanalar vaxtında tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz edilib və bu gün də bu proses davam etdirilir. COVID ilə mübarizədə səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır".

**"Qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər mütləq öz cəzasını alacaq"**

COVID-19 ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət göstərir, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir. Bu və digər amillər ölkədə vəziyyəti nəzarət altında saxlamağa imkan verir. Ölkə rəhbərinin sözlərinə görə, Azərbaycanda vəziyyətə uyğun şəkildə atılan addımlar öz səmərəsini verib. Bunun nəticəsində bir çox şəhərlərdə bütün karantin məhdudiyyəti aradan qaldırılıb. Bu məhdudiyyət yalnız böyük şəhərlərdə qalıb. Daha inamla və daha qısa müddət ərzində əlavə yumşaldıcı addımların atılması isə hamımızdan asılıdır: *"Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti, doğrudan da, görürük, hiss edirik və bu, real nəticələrdə öz əksini tapır, - belə olan halda hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir".*

## Dövlət vətəndaşını qoruyur və davamlı olaraq aparılan mübarizə tədbirləri birbaşa Prezidentin nəzarətindədir

Əfsuslar olsun ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar mövcuddur və qaydaların kobudcasına pozulması halları vardır. Dövlət başçısı vurğulayıb ki, belə hallar aşkarlananda cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyaya aid insanlara tətbiq olunur. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, hamı qanun qarşısında bərabərdir: *"Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar. Digər tərəfdən, qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək".*

Prezident İlham Əliyev vətəndaşların sağlamlığının, rifahının dövlət üçün prioritet olduğunu bir daha qeyd edib. Görülmüş bütün işlərdə də bu vəziyyətdən az itkilərlə çıxmaq məqsədi güdülür. COVID-19-la bağlı dünya statistikasına baxdıqda ölkəmizdə əldə edilmiş nəticələrin, doğrudan da, çox təsirli, çox dəyərli olduğunu görürük: *"Mən hesab edirəm ki, məhz bu tədbirlər nəticəsində biz minlərlə insanın həyatını qoruduq. Əminəm, birgə səylər nəticəsində bundan sonra da dövlətin qətiyyətli və düşünülmüş, ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez zamanda normal, adi həyata qayıdaq".*

## Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının tərkibinə aşağıdakı şəxslər təyin edilsinlər:

**Samir Nuriyev** – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

**Fuad Ələsgərov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

**Gündüz Kərimov** – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi

**Vilayət Eyvazov** – Azərbaycan Respublikasının Daxili İşlər naziri

**Əli Nağıyev** – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi.

2. "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 aprel tarixli 196 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 277; 2005, № 6, maddə 524; 2008, № 1, maddə 9; 2015, № 11, maddə 1301; 2017, № 1, maddə 51; 2018, № 6, maddə 1297; 2019, № 9, maddə 1487) ləğv edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 31 avqust 2020-ci il.*

***Ölkəmizin rəhbəri avqustun 26-da Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 29-da Qırğız Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Sooronbay Jeenbekova təbrik məktubu ünvanlayıb.***

***Dövlətimizin başçısı avqustun 31-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Vahid Yusifoviç Ələkbərovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri avqustun 31-də Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Şavkat Mirziyoyevə təbrik məktubu ünvanlayıb.***

# Prezident açılışlarda iştirak edib

Avqustun 26-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunda görkəmli rəssam Səttar Bəhlulzadənin adını daşıyan Mədəniyyət Evinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, 1926-cı ildə inşa edilmiş bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub. Ümumi sahəsi 8662 kvadratmetr olan dördmərtəbəli binada rəqs ansamblı, vokal-instrumental qrup fəaliyyət göstərir. Burada 612 tamaşaçı yeri olan konsert-tamaşa zalı və universal səhnə, rəqs ansamblının və orkestrin məşq zalları, solistlər üçün məşq və qrim otaqları, multimedia mərkəzi, səsyazma studiyası, sərgi salonu, dərnək otaqları, texniki və köməkçi təyinatlı otaqlar yaradılıb.

*****

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində yenidən tikilən 99 mənzildən ibarət yeddimərtəbəli yataqxana binasının açılışında iştirak edib, binada yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, Heydər Əliyev Fondunun layihəsi çərçivəsində tikilən binadakı mənzillər tam təmirlidir və zəruri avadanlıqla təchiz olunub.

Sakinlər onlar üçün yaradılan yüksək şəraitə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

*****

Avqustun 26-da Bakının Xəzər rayonunun Qala qəsəbəsində yeni inşa olunan 216 nömrəli tam orta məktəb binasının açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım yeni təhsil ocağında yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, 216 nömrəli tam orta məktəb 624 şagird yerlikdir. Təhsil müəssisəsində 24 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, əmək otaqları, hərbi hazırlıq otağı, informatika kabineti, idman və akt zalları, kitabxana və yeməkxana fəaliyyət göstərir. Məktəbdə videomüşahidə sistemi və fiber-optik internet quraşdırılıb.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunan bu təhsil müəssisəsinin həyətində geniş abadlıq işləri aparılıb.

# UĞURLU İSLAHATLAR DİNAMİK İNKİŞAFA TƏKAN VERİR



**Vətəndaş məmnunluğu, şəffaflıq və operativlik.** Bu şərtlər daha güclü Azərbaycanı qurmaq və qorumaq üçün dövlət başçımızın siyasətinin prioritetidir. Hamının qanun qarşısında bərabərliyinin və onun aliliyinin müqəddəslik simvolu kimi toxunulmazlığı uğrunda mübarizənin ön sıralarında olmaqla, dövlət başçısının "Mən də Prezident olaraq xalqımın xidmətçisiyəm" deməsi Vətənə, xalqa sevginin bariz nümunəsidir. Dövlətin dayaqlarının-sabitliyin və iqtisadi gücün xalqın rifahına xidmət etməsi yürüdülən siyasətin ulu öndər ideallarına söykəndiyini bir daha təsdiq edir.

**Azərbaycan Qafqazın ən güclü ölkəsidir.** İqtisadi və siyasi yüksəlişin sürətli tempi qarşıya çıxan maneələri dəf etməyə imkan verir. "Biz birlikdə güclüyük" şüarı həmrəyliyimizin təməlini daha da gücləndirib. Pandemiya dönəmi bir çox çətinliklər yaratsa da, əsəblərimizi sınağa çəksə də iradəmizi, əzmimizi qıra bilmədi. Min illər boyu qoruyub-saxladığımız yardımsevərlik ənənələrinə bu çətin günlərdə də xalqımızın sadiqliyi, "Birlik olan yerdə, dirilik olar" fikrinin əbəs yerə deyilmədiyini isbatladı. Aparılan islahatlar, dövlət idarəçiliyində gənclərin irəli çəkilməsi, şəffaflıq, irəliləyən illərdə intellektinin və təfəkkürünün gücünü səfərbər edib ömrünü millətə xidmətçiliklə keçirmək istəyənlərin qarşısında kimsənin kəsə bilməyəcəyi bir yol açdı. Yeni Azərbaycan dünyasına və erasına inteqrasiya bütün dövlət qurumlarında qısa zaman kəsiyində hiss olunmağa başladı. Hər bir xidmət növünün "ASAN"laşması adını Azərbaycan xalqının yaddaşına və tarixinə yazdırmaq üçün çabalarda bulunan LİDERİN siyasi uzaqgörənliyini bir daha gözlər önünə sərmiş oldu.

**Dövlət idarəçiliyində irəli çəkilənlərə tələblər açıq və net idi.** Bunun bariz nümunəsi avqustun 24-də Faiq Qürbətovu Biləsuvar rayon İcra Hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar ölkə başçısının onları videoformatda qəbul edərkən verdiyi mühüm tapşırıqlar idi:

**"...Siz öz işinizdə həmişə insanlarla bir yerdə olmalısınız. İnsanlar sizin qayğınızı hiss etməlidirlər. Bütün kəndləri bir-bir gəzib, vətəndaşlarla görüşüb, mövcud problemləri onların dilindən eşitməli və həll etməlisiniz"...**

Bu fikirlər, əslində, bütün dövlət qurumlarında təmsil olunanlara aiddir. Hər kəsin borcu ona verilən səlahiyyət çərçivəsində vicdanla dövlətinə, xalqına xidmət etməkdir.

Daha sonra ictimai nəzarət mexanizminin işə düşdüyünə toxunan Prezident deyir:

**"...Şadam ki, son vaxtlar ictimai nəzarət mexanizmi daha da mütəşəkkil forma alır. Mən bunu alqışlayıram. Siz də öz işinizdə insanlara arxalanmalısınız və rayonlarda ictimai nəzarət mexanizmi təkmil olmalıdır. O, sizə də işinizdə kömək göstərəcək. Sizin diqqətinizdə olmayan bəzi məsələlər ictimaiyyət tərəfindən diqqətinizə çatdırılacaq və beləliklə, bu məsələlər öz həllini tapacaq"...**

Möhtərəm Prezidentimizin daha güclü Azərbaycanı hədəflədiyi məlumdur. O, bütün çıxışlarında güclü iqtisadiyyatın təməli sabitliyə söykənir deyərək hüquq mühafizə orqanlarına, xüsusilə də Azərbaycan Polisinə inamını ifadə etməklə yanaşı, həm də üzərimizdə böyük bir məsuliyyətin olduğunu bizə xatırladır.

**Dövlət başçısının tələbləri polisin fəaliyyətində də prioritetdir.** İnsan hüquq və azadlıqlarının qorunması istiqamətində görülən tədbirlər, cinayətkarlıqla qətiyyətli mübarizə, polis-vətəndaş münasibətlərinin təməlini təşkil edən qarşılıqlı inam və etibar. Sadaladıqlarım xidməti fəaliyyətin müasir dünyanın tələblərinə və çağırışlarına uyğun şəkildə qurulmasının nəticəsidir. Paytaxtda və yerlərdə DİN rəhbərliyinin pandemiyadan öncə keçirdiyi vətəndaş qəbullarında polisin qarşısına qoyduğu əsas tələb insanların üzləşdikləri problemin həlli üçün bütün imkanları səfərbər etməkdir.



Etiraf edək ki, cinayətkarlıqla mübarizənin effektivliyi həm də vətəndaş-polis münasibətlərindən çox asılıdır. Baş verə biləcək cinayətin qarşısının alınmasında vətəndaşların fəal mövqe nümayiş etdirərək polisə məlumat vermələri aparılan maarifləndirmənin bəhrəsidir. Çünki dövrün tələbi əldə olunmuş informasiyanın ötürülməsidir ki, bu da hüquq mühafizə orqanlarına, o cümlədən polisə qara yaxanlara ölkəmizdə söz azadlığı kimi konstitusion hüququn məhdudlaşdırılmadığını sübut etməyə imkan verir.

Yeri gəlmişkən, bu gün dünyanın əksər ölkələrində rast gəlinən irqi ayrıseçkilik faktları Azərbaycanda qeydə alınmayıb. Multikultural dəyərlərə sayğı DİN sistemində də yetərincə təbliğ olunur. Odur ki, daxili işlər orqanlarında milliyyətindən asılı olmayaraq hər kəsin Vətəninə, dövlətinə xidmət etməsi üçün bütün imkanlar yaradılıb. Kadr seçimi tam şəffaf şəkildə aparılır. Bu da Azərbaycan Polisi olmaq istəyənlərin sayını günü-gündən artırır.

Ötən il cinayətkarlıqla mübarizədə əldə olunan uğurların bu il və gələn illərdə də davamlı olacağını faktlar təsdiqləyir. Təkcə narkotiklərlə bağlı mübarizə tədbirləri və külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılaraq məhv edilməsi 2019-cu ildə görülmüş işlərin qənaətbəxş olmasına diqqət çəkir. Belə ki, ötən il daxili işlər orqanları əməkdaşları tərəfindən qeyri-leqal dövriyyədən bütövlükdə 1 ton 231 kiloqram narkotik vasitə çıxarılıb. Qeyri-qanunu kultivasiya edilən 127 tona yaxın xaşxaş kolu aşkarlanaraq məhv edilib.

*Ardı 3-cü səhifədə.*

# Daxili İşlər Nazirliyi vətəndaşlara çağırış etdi

Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə 2020-ci il sentyabr ayının 30-dək ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə bütün kütləvi tədbirlər, o cümlədən ictimai və digər yerlərdə şəxslərin 5-10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağan edilmiş, məscidlərin fəaliyyəti dayandırılmışdır.

Bu il Aşura mərasimi də xüsusi karantin rejimi dövrünə təsadüf etdiyindən vətəndaşlarımız məsələyə anlayışla yanaşaraq Operativ Qərargah tərəfindən müəyyən edilmiş məhdudiyyətlərə bütövlükdə əməl etmişlər. Yalnız bir neçə şəhər və rayonda insanların yoluxma riskini artıran toplaşmağa cəhdlərin qarşısı vaxtında görülmüş tədbirlərlə alınmışdır.

Bununla belə, bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə müvafiq qadağaları məhz Aşura günündə dini mərasimlərin keçirilməsinə imkan verilməməsi ilə əlaqələndirməyə cəhdlər edilmişdir.

Bü cür məlumatların yanlış olduğunu xüsusi vurğulayaraq, eləcə də insanların dini etiqad azadlığına dərin hörmətimizi ifadə edərək bildiririk ki, xüsusi karantin rejimi dövründə istənilən toplantının, hətta Silahlı Qüvvələrə dəstək xarakterli kütləvi aksiyanın keçirilməsi də yolverilməzdir. Tətbiq olunan məhdudiyyətlərin yeganə məqsədi isə – əhalinin sağlamlığının müdafiəsidir.

Bir daha vətəndaşlarımızı koronavirus pandemiyasının doğurduğu ciddi təhlükəni unutmamağa, bu sahədə böyük və gərgin səylər bahasına əldə olunmuş müsbət nəticələri qorumağa, o cümlədən özünütəcrid qaydalarına riayət etməyə, sosial məsafəni gözləməyə, nəfəs yollarını qoruyan vasitələrdən daim istifadə etməyə çağırırıq.

# Gənc hüquqşünasların köməkçisi...

**Polis və vəkil. Bu peşə sahibləri zahirən bir-birinə əks cəbhədə yer alsalar da, əslində, hər ikisi qanun təmsilçiləri, hüquq müdafiəçiləridirlər. Onlar qanunun aliliyinin, insanların konstitusion hüquqlarının, habelə ədalətin bərqərar olmasının keşiyində dururlar.**

Bu iki sahədən söhbət açmağımın əsas səbəbi onların gənc hüquqşünasların üzləşdikləri bəzi çətinliklərə yardımçı olmaq məqsədilə müştərək hazırladıqları ***"Gənc hüquqşünasın stolüstü kitabı"dır. Sözügedən vəsaitin tərtibçilərindən biri də Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəis müavini, polis mayoru Elnur Aslanovdur.*** O, 27 sentyabr 1983-cü ildə Füzuli rayonunda doğulub. 2001-2005-ci illərdə Bakı Dövlət Universitetinin "Beynəlxalq hüquq və beynəlxalq münasibətlər" fakültəsinin beynəlxalq hüquq ixtisası üzrə bakalavr, 2005-2007-ci illərdə isə magistr pilləsini fərqlənmə diplomları ilə bitirib. AMEA-nın doktorantıdır.




Həmkarımız iki kitabın (dərslik və monoqrafiya), polis haqqında qanunvericiliyə və İNTERPOL-un qaydalarına dair iki test toplusunun, altı tədris proqramının və qırxdan çox məqalənin müəllifidir.

"Gənc hüquqşünasın stolüstü kitabı" hakimlər, prokurorlar, vəkillər, vəkilliyə və hakimliyə namizədlər, gənc hüquqşünaslar, o cümlədən geniş hüquq ictimaiyyəti üçün nəzərdə tutulub.

Kitab barədə paqondaşımız bunları dedi:

"Ali təhsil ocaqlarında nəzəri bilikləri öyrənən hüquqşünas tələbələrin təhsilini başa vurub praktiki fəaliyyətə başlayarkən müəyyən çətinliklərlə qarşılaşdığını nəzərə alıb "Gənc hüquqşünasın stolüstü kitabı"nı hazırladıq. Bu nəşr məhz praktikada onların ən yaxın köməkçisi olacaq. Məsələn, gənc hüquqşünas mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət müəssisələri barədə kitabdan informasiya əldə etməklə, icraatında olan konkret məsələ barədə müraciət ünvanlamalı olduğu qurum haqqında daha dəqiq məlumatı öncədən əldə etmiş olur. Kitabda, həmçinin, milli, beynəlxalq və Avropa hüquq sistemləri barədə qısa informasiya, ölkəmizin üzv olduğu əsas universal və regional beynəlxalq təşkilatlar, o cümlədən əməkdaşlığımızın əsas aspektləri haqqında ətraflı məlumat yer alıb. Bundan başqa, dövlət hakimiyyətinin qollarının (icraedici, qanunvericilik və məhkəmə) mahiyyəti, funksiya, vəzifə və yurisdiksiyaları, habelə vəkillik institutu əksini tapıb.

Ümidvarıq ki, bu kitab gənc hüquqşünaslarımızın praktiki vərdişlərinin inkişafında, daha da təkmilləşdirilməsində əhəmiyyətli rol oynayacaq və çəkilən zəhmət qısa zaman çərçivəsində əməli fəaliyyətdə öz bəhrəsini verəcək."

***Teymur Əlizadə,***
***polis kapitanı***

# Statistika və rəylər...

**Azərbaycanda məişət zorakılığı nəticəsində zərərçəkənlərlə bağlı rəsmi statistikaya görə, ötən il 37 qadın öldürülüb. Onlardan birinin 18 yaşına çatmaması müəyyən olunub.**



24 qadının öldürməsinə cəhd edilsə də, onların həyatını xilas etmək mümkün olub. Həmçinin rəsmi statistikaya görə, 2019-cu ildə ölkədə 1039 qadın cinayət törədib. Onlardan 11-i adam öldürüb, 1-i isə öldürməyə cəhd edib.

Mövzu ilə bağlı bir çox ekspertlər fikir bildirib. **"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova:** "Təəssüflər olsun ki, bu gün cəmiyyətdə qadının əvvəlki itaətkar sosial rolunu dəyişib öz haqqını tələb edən qadın obrazına çevrilməsi qəbul edilmir". Birlik sədri bu problemlərin araşdırılması üçün "Qaynar xətt"in yaradılmasını zəruri hesab edir.

2018-ci ildə BMT-nin illik hesabatında 90 mindən çox qadının qətlə yetirildiyi barədə məlumat yer alıb.

Qadınlar tərəfindən törədilən cinayətlərlə bağlı məsələyə onun münasibəti belə olub: "Cinayətlərin araşdırılmasında müəyyən bir fərqli yanaşma ortaya qoymaq lazımdır. Məsələn, araşdırmaq lazımdır ki, hadisəyə qədər qadın neçə dəfə polisə müraciət edib, hansı vəziyyət yaranıb ki, qadın bu cinayəti törədib. Çünki, əksər hallarda bu kimi cinayətlər ailə münaqişəsi zəminində törədilir. Azərbaycanda qadının adam öldürməsi çox təsadüfi hallarda baş verir. Bunu nəzərə alaraq, istintaq mərhələləri çox dərin öyrənilməli, prosesdə məişət zorakılığını bilən, onun mahiyyətinə varan, o sualları verən və materialları toplayan adamlar olmalıdır. Bəzən cinayət törədən qadınların vəkilləri olmur, bu səbəbdən özlərini kifayət qədər müdafiə edə bilmirlər. Bu məsələyə də diqqət çəkmək lazımdır".

**Regionlarda zorakılığa məruz qalan qadınların əksəriyyətinin polisə müraciət etmədiyini narahatlıqla ifadə edən ekspertlər son illərdə qadın polislərin sayının artmasını bu problemdən çıxış yollarından biri kimi qiymətləndiriblər.** Onlar ümidvar olduqlarını bildiriblər ki, belə olan təqdirdə, qadınlar rahat şəkildə, heç nədən çəkinmədən öz şikayətlərini bildirməyə başlayacaqlar. Bu da sözügedən cinayət faktlarının azalması ilə müşahidə olunacaq.

*Əvvəli 2-ci səhifədə.*

# UĞURLU İSLAHATLAR DİNAMİK İNKİŞAFA TƏKAN VERİR

Narkotiklərlə mübarizə sahəsində bu ilin müvafiq dövründə həyata keçirilən tədbirlər çəkilən zəhmətin hədər getmədiyinin təsdiqidir. Belə ki, 2020-ci ilin altı ayı ərzində daxili işlər orqanları tərəfindən narkotiklərlə bağlı 2785 fakt aşkar edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 475 fakt çoxdur. Eyni zamanda, dövriyyədən çıxarılan narkotik vasitələrin kütləsində də artım müşahidə olunub. Ötən müddət ərzində 1 ton 67 kiloqram narkotik vasitə götürülüb, bu da ötən illə müqayisədə 257 kiloqram çoxdur. Dövriyyədən çıxarılan narkotik vasitələrin 491 kiloqramdan çoxu marixuana, təxminən 436 kiloqramı heroin olub. Bu sırada tiryək, həşiş və digər güclü təsiredici psixotrop maddələr də aşkar edilərək məhv edilib...



**Polis xilaskardır.** Hər gün ölkə gündəmində yer alan xəbərlərdə səslənən bu fikir vətəndaş mövqeyidir. Polisin yardımsevərliyi də bu çətin günlərdə daha qabarıq göründü. DİN-ə ünvanlanan məktubların əksəriyyətində bu fikirlər yer alır: "Pandemiya dönəmində biz fərqli bir polis obrazının şahidi olduq. Ölkə başçımızın aztəminatlı ailələrə dövlətin dəstəyi ilə yanaşı, imkanı olan hər bir kəsin bu nəcib işdə köməyini əsirgəməməsi çağırışına ilk olaraq polisin qoşulması bizi qürurlandırdı. Təkcə paytaxtda deyil, regionlarda da polis köməyə tələsdi, gücünü, sevgisini səfərbər etdi. Azərbaycan Polisi koronavirus adlı bəladan bizi qorumaq üçün öz həyatını, sağlamlığını riskə atdı. Onlarla polis bu ölümcül virusa yoluxub həyatla vidalaşdı"...

Sırası savadlı, sağlam, Vətənini, xalqını, dövlətini sevən gənclərlə möhkəmlənən Azərbaycan Polisi inanırıq ki, bundan sonra da fəaliyyətində cənab Prezidentin ünvanladığı bu fikirləri əsas götürəcək, içdiyi andına sadiqliyini nümayiş etdirəcək.

**"...Siz, eyni zamanda, öz davranışınızla insanların hörmətini qazanmalısınız. İnsanları qıcıqlandıra biləcək addımlar atmamalısınız. Özünüzü hamıdan yuxarıda hiss etməməlisiniz.**

**...Ona görə rəhbərin təvazökarlığı rəhbərin yaraşığıdır, bu birincisi. İkincisi, rəhbərin mənəvi haqqı olmalıdır ki, öz tabeliyində olan insanlardan nəyisə tələb etsin. Əgər bu mənəvi haqq yoxdursa, nə istəyirsiniz deyin, nə istəyirsiniz edin, sizə nə hörmət, nə də ki, rəğbət olacaq. Ona görə, siz məişətdə də, işdə də nümunə olmalısınız və özünüzü təvazökar aparmalısınız".**

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

# Hərbi salamın tarixi haqqında nə bilirik?

Hərbi salamın tarixi haqqında dəqiq məlumat olmasa da, müxtəlif mənbələrdə fərqli fikirlərə rast gəlmək mümkündür.

Əvvəllər demək olar ki, dünyanın hər yerində, əsasən də Böyük Britaniya ordusunda kiçik rütbəlilər yüksək rütbəliləri salamlayarkən şlyapalarını çıxarmalıydı. XVIII-XIX əsrlərdə bu ölkənin ordusunda hərbi baş örtüyü çox iri olduğundan, onu hər dəqiqə çıxarıb-taxmaq çətinlik yaradırdı. Bu səbəbdən də hərbidə salamlaşma sağ əldəki barmaqların ucunu alına toxundurmaqla sadələşdirildi.



***Müasir hərbi salamlaşma ilk dəfə 1745-ci ildə Koldstrim alayında, İngiltərə kraliçasının elitar qvardiyasının şəxsi mühafizə bölməsində rəsmiləşdirildi.*** Alay qvardiyasının nizamnaməsində belə yazılıb: "Şəxsi heyətə əmr verilmişdir ki, artıq zabitlərə salam verərkən və ya müraciət edərkən şlyapa çıxarılmamalı, əvəzində sadəcə olaraq sağ əldəki barmaqların ucu papağa toxundurularaq təzim edilməlidir".

1762-ci ildən isə hərbi salamlaşma ilə bağlı şotland qvardiyasının nizamnaməsi daha da qətiləşdirilir. Nizamnamədə deyilir: "Hər addımbaşı şlyapanı çıxarmaq narahat olduğundan, şlyapanın tutacağı çox tez çirkləndiyinə görə əmr olunur ki, hərbi salam verərkən ovucu papağa toxundurmaq kifayətdir". Bu əmrə əks təsirlər göstərilsə də, yenə də öz qüvvəsində qalmışdır.

XIX əsrin ortalarında isə Böyük Britaniyada hərbi salamlaşmada bəzi dəyişikliklər edildi. Belə ki, hərbi salamlaşma zamanı sağ əldə ovucun içi çölə olmaqla barmaqların ucu sağ qaşın üstünə və baş örtüyünə toxunmalıdır. Bu ənənə indiyədək qalmaqdadır. ABŞ-da hərbçilər salamlaşarkən əllərini alının ortasına qədər uzadırlar və ovuclarını aşağıya, yəni yerə yönəldirlər. Bu cür salamlaşma amerikalılara İngiltərənin Hərbi Dəniz Donanmasından keçmişdir. Belə ki, hələ yelkənli gəmilər olan zamanlar dənizçilər gəmilərin taxta hissələrini qırlayırdılar ki, həm suya davamlı olsun, həm də çatlardan içəri su keçməsin. Bu zaman dənizçilər əlləri qıra bulaşmasın deyə, ağ əlcəklər geyinirdilər və iş zamanı hərbi salam verərkən qara, çirkli ovucların görünməməsi üçün 90 dərəcə aşağı çevirirdilər. Beləliklə, ağ əlcək geyinib hərbi salam vermək adəti buradan yaranmış və ənənə halını almışdır.

Çar Rusiyasında isə hərbçilər salamlaşarkən iki barmağı (göstərici və orta barmaq) alına, qaşın üstünə qoyurdular. Bu ənənə hal-hazırda Polşada mövcuddur.

Ölkəmizdə hərbi salam Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun yerinə yetirilir. Bütün qoşun növləri, həmçinin, polis və xüsusi xidmət orqanlarının əməkdaşları hərbi salamı bu nizamnamənin üçüncü fəslində qeyd olunan əsgəri salamlaşma qaydalarına müvafiq icra edirlər. Nizamnamədə əsgəri salamın silahsız və ya silahla olarkən, dəqiq və qıvraq, sıra duruşu və yerişi qaydalarını düzgün yerinə yetirməklə verilməli olduğu göstərilib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin birinci fəslində də əsgəri salamlaşmalarla bağlı müddəalar öz əksini tapıb. Belə ki, bütün hərbi qulluqçuların qarşılaşdıqları zaman (bir-birini ötüb keçdikdə) Sıra Nizamnaməsində müəyyən edilmiş qaydada bir-birilə salamlaşmalı, eləcə də tabelikdə olanların və rütbəcə kiçiklərin salamı birinci verməli olduqları qeyd olunub.



Bundan əlavə, nizamnamədə hərbi qulluqçuların Vətənin azadlığı və müstəqilliyi uğrunda döyüşlərdə həlak olmuş əsgərlərin məzarlarına, hərbi hissələrin Döyüş Bayraqlarına, həmçinin, hərbi gəmiyə gəldiyi və getdiyi zaman Hərbi Dəniz Bayrağına, qoşunların müşayiət etdikləri dəfn mərasimlərinə əsgəri salam vermələri tələb olunur.

***mayor Anar Əhmədov***

# Həyatını polis xilas etdi

## Ailə münaqişəsi zəminində baş verən hadisədən sonra özünü öldürmək istədi. Amma...

DİN Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan verilən məlumata görə, rayon sakini Gülanə Mütəllibova Quba rayon Polis Şöbəsinə müraciət edərək əri Turab Mütəllibov tərəfindən döyülməsi barədə məlumat verib.

Daxil olmuş məlumatla əlaqədar əməliyyat qrupu dərhal hadisənin baş verdiyi ünvana yollanıb. Ünvana çatanda evin heç bir işığının yanmaması və qapının bağlı olması polis əməkdaşlarında şübhə yaradıb. Əməkdaşlar həyətə hasardan baxanda Turab Mütəllibovun qapı çərçivəsindən özünü asaraq intihara cəhd etməsini görüblər və cəld hasardan aşaraq onun bu cəhdinin qarşısını vaxtında alıblar.

T.Mütəllibova hadisə yerində ilkin tibbi yardım göstərilib. Daha sonra isə o, təcili tibbi yardım stansiyasının əməkdaşlarına təhvil verilib.

# Çantadakı heroin idi

## Polis narkotik vasitənin ünvanına çatmasına imkan vermədi

Lənkəran regional qrupundan verilən məlumata görə, Cəbrayıl RPŞ-nin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində İmişli şəhər sakini N.Fəttahlının idarə etdiyi "VAZ 21093" markalı avtomobil saxlanılaraq RPŞ-yə gətirilib. Həmin avtomobildə sərnişin qismində olan K.Məhərrəmovun əl çantasına baxış zamanı 3 kiloqramdan artıq narkotik vasitə heroin aşkar edilərək götürülüb. İlkin araşdırma zamanı K.Məhərrəmovun həmin narkotik vasitəni İran vətəndaşı Nadir adlı şəxsin vasitəsilə əldə etdiyi müəyyən edilib.

# Profilaktiki söhbət aparılıb

## Keçirilən reydlər həm də maarifləndirməyə xidmət edir

Bərdə regional qrupundan verilən məlumata görə, Saatlı RPŞ-nin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən keçirilən reydin əsas məqsədi velosiped istifadəçilərinin yol hərəkəti qaydalarına riayət etməsinə nəzarətin gücləndirilməsidir. Gələcəkdə velosipedçilərin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması üçün həmin şəxslərlə profilaktiki səpkidə söhbətlər aparılıb. Eyni zamanda polis əməkdaşları hər bir velosiped istifadəçisinə koronavirus pandemiyasının yarada biləcəyi təhlükələr barədə geniş məlumat verib, onlara tibbi maskalar paylanılıb.

# Azərbaycanda ilk dəfə: Polisdən xüsusi əməliyyat

## Narkobaron bu dəfə cəzadan yaxa qurtara bilmədi

Şəki regional qrupundan verilən məlumata görə, "Xaş-xaş 2020" əməliyyat-axtarış və profilaktik tədbirlər planına uyğun olaraq Balakəndə narkotik vasitələrin qanunsuz dövriyyəsi və kultivasiyası ilə məşğul olan şəxslərin tutularaq, məsuliyyətə cəlb edilmələri istiqamətində bir neçə uğurlu əməliyyat tədbirləri həyata keçirilib.

Belə ki, Balakən rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları ilə birgə keçirilən tədbirlərlə narkobaron saxlanılıb.

Rayonun Mahamalar kənd sakini Kamal Sultanovun yaşadığı evin həyətyanı sahəsində narkotik vasitələrin kultivasiyası ilə məşğul olması barədə Polis Şöbəsinə əməliyyat məlumatı daxil olub.

Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən birgə keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində helikopterlə həmin ərazi havadan müşayiət edilən zaman orada narkotik tərkibli bitkilərin becərilməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Təxirəsalınmaz tədbirlərlə əməliyyat-istintaq qrupu K.Sultanovun yaşadığı evin həyətyanı sahəsinə baxış keçirib. Bu zaman bostan bitkilərinin arasında əkib-becərdiyi, ümumi çəkisi 34 kiloqrama yaxın olan 587, həmçinin, dibçəklərdə kultivasiya yolu ilə yetişdirdiyi 7 ədəd narkotik tərkibli çətənə bitkiləri aşkar edilərək maddi sübut kimi götürülüb.

Araşdırma zamanı həmin şəxsin narkotik vasitəni bir müddət əvvəl becərdiyi, onlara xüsusi qulluq göstərdiyi və yetişdirib, qurutduqdan sonra isə satmaq məqsədində olduğu məlum olub.

Qeyd edək ki, K.Sultanov rayon ərazisində narkobaron kimi tanınır və bir neçə dəfə törətdiyi əməllərə görə cinayət məsuliyyətindən yayınmağa cəhd edib.

# Qanunu pozub, cəzanı düşünmədilər

## Əvvəllər də məhkum olunmuş şəxslərdən götürülən silahlar və narkotik vasitələr barələrində hökm çıxarmağa imkan verir

Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən Bərdə şəhərində ictimai-asayişi kobud sürətdə pozaraq vətəndaşların haqlı narazılığına səbəb olmaqla ciddi qanun pozuntularına yol verən şəxslərə qarşı kompleks əməliyyat tədbirləri həyata keçirilib.

Belə ki, əldə edilən əməliyyat məlumatlarında bir qrup cinayət törətməyə meyilli şəxsin Bərdə şəhərində narkotik vasitələrin satışı, yaşadıqları mənzillərdə qanunsuz olaraq odlu və soyuq silah-sursat saxlamaları, eləcə də silsilə xuliqanlıq hərəkətlərin törətmələri öz əksini tapıb. Həmin məlumatlar təhlil edilərək öyrənilib və qeyd edilən faktlar hərtərəfli araşdırılıb.

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə və Baş Narkotiklərlə Mübarizə İdarələri, eləcə də Bərdə rayon Polis Şöbəsi əməkdaşları tərəfindən avqustun 27-də birgə keçirilən əməliyyatlar zamanı yuxarıda sadalanan qanun pozuntularını törətməkdə şübhəli bilinən, əvvəllər müxtəlif cinayətlər törətdiklərinə görə dəfələrlə məhkum olunmuş 11 nəfər Bərdə rayon sakini - Dilqəm Səfərov, İmadi Əbdüləzimov, Xəlil Heydərov, Ayxan Abbasov, Rizvan Məmmədov, İmdad Abdullayev, Zaur Hacıyev, Musa Şərifxanov, Xəqani Məmmədov, Ehtiram İsayev və Sevdiyar Əzizov saxlanılıblar. Onların üzərlərinə və yaşadıqları evlərə baxış zamanı külli miqdarda müxtəlif növ güclü təsiredici xassəyə malik narkotik vasitə və psixotrop maddələr, 1 ədəd "Naqan" tipli tapança, çoxlu sayda soyuq silah kimi istifadə olunan kəsici-deşici alətlər, elektron tərəzilər aşkar olunaraq maddi sübut kimi götürülüb.

Həmin şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılmaqla onlar barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Həmin şəxslər tərəfindən törədilmiş digər cinayət faktlarının müəyyən edilməsi məqsədi ilə müvafiq istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*****

Cəlilabad rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini R.Əliyev saxlanılıb. Axtarış zamanı onun üzərindən 8 qramdan artıq heroin aşkarlanıb. Davam etdirilən tədbirlərlə onun həyətyanı sahəsindən isə əlavə 1 kiloqram 960 qram tiryək götürülüb.

Faktla bağlı araşdırmalar davam etdirilir.

# Cinayətkarın şəxsiyyətində bioloji və sosial amillərin nisbəti

*Əvvəli ötən sayımızda.*

İnsanları genetik xüsusiyyətlərinə görə ali və aşağı səviyyəli irqlərə bölməsi Ç.Lambrozonu haqlı tənqidlərin hədəfinə çevirmişdi. Məhz onun bu ideyasına tənqidi yanaşma nəticəsində Ç.Lambrozo cinayətlərin əsas səbəblərindən biri kimi mühit amilini qəbul etmiş və cinayət törədənləri altı qrupa bölərək onların tipoloji təsnifatını vermişdir.



Ç.Lambrozonın tədqiqatlarını müxtəlif meyarlar əsasında qiymətləndirmək olar. Lakin onun cinayət törədənin şəxsiyyəti ilə genetika arasında bağlılığa həsr edilmiş tədqiqatlara təsiri şübhəsizdir. Stiven Şeyfer hesab edirdi ki, Çezare Lambrozonu asanlıqla müasir kriminologiyanın atası adlandırmaq olar. Çünki onun nəzəriyyələri cinayət törədənin şəxsiyyəti haqqında nəzəri və təcrübi tədqiqatların aparılmasına səbəb olmuşdur. Abrahamsen isə Ç.Lambrozonun cinayət törədənin şəxsiyyətinin öyrənilməsi üçün bir yol açdığını yazırdı. Volfqanqa görə isə şəxsiyyətin xarakterik xüsusiyyətləri haqqında göstəriciləri özündə əks etdirən müasir kliniki, psixoloji, psixiatrik analizlər Ç.Lambrozonun tədqiqatlarına bənzəyir. Lakin onların nəticələri onun kəşflərindən daha incə və dəqiqdir.

Ç.Lambrozaya qarşı qəti mövqeyi ilə seçilən S.V.Poznışev isə göstərirdi ki, "Anadangəlmə cinayətkar ideyası mahiyyət üzrə yoxsuldur. Cinayət həmişə müəyyən mürəkkəb psixi təəssüratın, xarakteri müxtəlif xüsusiyyətlərdə ifadə olunan və anadangəlmə kimi səciyyələnməyən insan əhval-ruhiyyəsinin təzahürüdür. Anadangəlmə cinayətə meyillilik psixoloji və məntiqi nöqteyi-nəzərdən qeyri-mümkündür. Qeyd etmək lazımdır ki, cinayətkarlar arasında qismən degenerasiya, müavinətsizlik və mənəvi yoxsulluq əlamətinə malik olan şəxslər müəyyən faiz təşkil edir. Lakin bütün bu xüsusiyyətlər cinayətkarlığın səciyyəvi mənbəyi və ya cəhətləri yox, nəsil cırlaşmasının adi əlamətləridir". Amsterdamda "Cinayət antropologiyası"na həsr olunmuş konqresdə Ferri antropoloji məktəbinin nümayəndələri bildirirdilər ki, anadangəlmə cinayətkarın bütün əlamətlərinə malik olan insan cinayət törətməyə bilər.

Ç.Lambrozonun fikirləri nə qədər tənqidi mülahizələr yaratsa da, bioloji amillərlə bərabər sosial faktorların da öyrənilməsi ilə bağlı kriminoloji tədqiqatların aparılmasının zəruriliyini göstərdi. Cinayət törədənin şəxsiyyətində bioloji və sosial amillərin müqayisəli tədqiqi ümumilikdə kriminoloji tədqiqatların da dolğunluğunu və elmiliyini artırdı.

Ç.Lambrozonun ölümündən sonra da onun antropoloji təlimi Rafael Qarofalo və Enriko Ferri tərəfindən inkişaf etdirilərək çoxlu sayda tərəfdar toplamışdı. Lakin həm Qarofalo, həm də Ferri cinayət törədənin şəxsiyyətində kriminogenliyə təkan verən bioloji faktorları qeyd etsələr də, sosial mühitlə bağlı səbəbləri də qəbul edərək bu təlimi daha da dolğunlaşdırdılar.

*Ardı var.*

*Vüqar Mansurov,*
*polis polkovnik-leytenantı*

# Tariximizi öyrənək

**Əfşarlar dövlətinin zəifləməsi və dağılmasından sonra, XVIII əsrin 40-cı illərində Azərbaycan ərazisində müstəqil dövlətlər olan xanlıqlar yarandı. Şimal torpaqlarında Qarabağ, Şəki, Gəncə, Cavad, Şamaxı, Quba, Bakı, Dərbənd, Salyan, Lənkəran, Naxçıvan və İrəvan xanlıqları, Cənubda Təbriz, Urmiya, Xoy, Qaradağ, Sərab, Marağa, Maku, Əhər və Ərdəbil xanlıqları meydana gəldi. Xanlıqlarla yanaşı şimal torpaqlarında yarımmüstəqil feodal hakimlikləri olan İlisu, Qəbələ, Ərəş, Borçalı, Qazax və Şəmşəddil sultanlıqları, habelə feodal respublikası hesab edilən Car-Balakən icması (camaatlığı) kimi qurumlar da formalaşdı.**

### Qarabağ xanlığı

Qarabağ xanlığının əsasını Cavanşirlər tayfasından olan Pənahəli xan (1748-1763) qoymuşdur. Xanlıq İran hökmranlığı ilə mübarizədə yaranmış və möhkəmlənmişdir. Nadir şahın varisləri arasındakı çəkişmələrdən istifadə edən Pənahəli xan öz hakimiyyət və nüfuzunu Ərdəbilə qədər yaya bildi. Tatev, Sisian, Qafan, Meğri mahallarını özünə tabe etdi. Pənahəli xan uca sıldırımlı qayanın kənarında möhtəşəm Pənahabad qalasını inşa etdirdi və 1755-1756-cı illərdə paytaxtını bura köçürdü. Qala sonralar yaxınlıqdakı Şuşakəndin adı ilə Şuşa adını aldı.

### Quba xanlığı

Quba xanlığının banisi Hüseynəli xan (1726-1758) hələ 1726-cı ildə rus hakimiyyət orqanları tərəfindən bu vəzifəyə təqdim olunmuş, rus çarı onu Quba xanı təyin etmişdi. Onun dövründə Salyan və Rudbar Quba xanlığına tabe edildi. Quba xanlığının yüksəlişi Fətəli xanın hakimiyyətə gəlməsi ilə bağlıdır. Fətəli xan 1757-ci ildə Salyan, 1759-cu ildə Dərbənd, 1766-cı ildə Bakı, 1768-ci ildə Şamaxı və Cavad xanlıqlarını Quba xanlığına birləşdirməyə nail oldu.

### Gəncə xanlığı

Gəncə bəylərbəyliyi əsasında yaranmışdı. Bu bəylərbəyilik irsi olaraq kiçik fasilələrlə XVII əsrdən 1804-cü ilə qədər Qacarlar tayfasının Ziyadlı oymağına məxsus Ziyadoğlular nəsli tərəfindən idarə olunmuşdur. Xanlığın banisi Şahverdi xan Ziyadoğlu idi. Gəncə həm hərbi-siyasi, həm də iqtisadi-təsərrüfat baxımından mühüm əhəmiyyət kəsb edirdi. Yarandığı vaxtdan bu xanlıq qonşu feodal hakimlərin hücum obyektinə çevrilmişdi.

### Naxçıvan xanlığı

Naxçıvan xanlığının əsasını Kəngərli boyunun başçısı Heydərqulu xan qoymuşdur. Xanlığı gücləndirmək və təcavüzlərdən qorumaq məqsədilə Heydərqulu xan (1747-1763/64) hakimiyyətinin ilk dövrlərində daha güclü olan Qarabağ xanlığına arxalanırdı. Heydərqulu xanın ölümündən sonra 1787-ci ilə qədər hakimiyyət uğrunda mübarizə nəticəsində Naxçıvan xanlığı zəifləyir, Xoy, Qarabağ, İrəvan xanlıqları, Kartli-Kaxeti çarlığı və İran arasında ardı-arası kəsilməyən mübarizənin mərkəzinə çevrilir.

### İrəvan xanlığı

Çuxursəd bəylərbəyliyi əsasında təşəkkül tapmışdı. Nadir şah qətlə yetirildikdən sonra, İrəvanda İran ağalığına qarşı üsyana başçılıq edən yerli feodal Mir Mehdi xan özünü xan elan edərək, müstəqil İrəvan xanlığının əsasını qoydu. Lakin İrəvan xanlığı keçmiş bəylərbəyliyin bütün ərazilərini əhatə edə bilmədi. Onun bir hissəsi Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi. Xanlığın mərkəzi İrəvan şəhəri idi.

### Təbriz xanlığı

Banisi Dünbüli tayfasının görkəmli nümayəndəsi Nəcəfqulu xan (1745-1780) olmuşdur. O, Təbrizdə urmiyalı Fətəli xan Əfşarın fəal yardımı ilə möhkəmlənmişdi. Buna görə də müəyyən vaxt ərzində Təbriz xanlığı Urmiya xanlığından asılı vəziyyətdə olmuşdu. 1763-cü ildə Fətəli xan Əfşar Kərim xan Zənd tərəfindən məğlub edildikdən sonra Təbriz xanlığı tam müstəqillik qazandı.

*Hazırladı: Aytəkin Nəcəfova*

# Elmdə daha bir yenilik

***Üçölçülü "üzgəc" nanoölçülü işıq diodlarının parlaqlığını azı 100 dəfə artırdı***

Alimlər çox kiçik işıq diodlarının detallarından birinə üçölçülü "üzgəc" formasını verməklə onun parlaqlığını dəfələrlə artırıblar. Bu, onun sayəsində baş verib ki, modifikasiya işıq diodlarında istiliyi kəskin azaldıb və effektivliyi yüksəldib. İşin nəticələri "Science Advances" jurnalında dərc edilib.

İşin müəlliflərindən biri – ABŞ Milli Standartlar və Texnologiyalar İnstitutundan fizik Babak Nikoobaxt: "Biz müvafiq işıq şüalandırıcılarının hazırlanmasında tətbiq olunan materialdan istifadə edirik. Fərq yalnız onların formasındadır. Müqayisə üçün: bir kvadrat mikrometr sahəsi olan adi işıq diodu təqribən 20 nanovatt, bizim hazırladığımız şüalandırıcı 20 mikrovatt (yəni min dəfə çox) işıq yaradır".



İlk işıq diodunu alimlər yarım əsr əvvəl yaradıblar. Bütün işıq diodlarında iki böyük çatışmazlıq var. Birincisi, onlar davamlı deyil. İkincisi, parlaqlıq nisbətən aşağı həddədir (bu halda işıq diodları bərk qızmır və elektrik enerjisi sərfiyyatı baxımından səmərəlidir).

Babak Nikoobaxt və onun həmkarları mövcud problemi təsadüfən həll ediblər. Onlar mikroçipin və ya digər miniatür cihazın içinə yerləşdirmək üçün işıq şüalandırıcısı yaratmaq istəyiblər. Alimlər qeyd edirlər ki, bu cür ölçüyə malik bütün işıq diodları təcrübədə faydasızdır, çünki onlar olduqca az işıq yaradır.

"Mən təklif etdim ki, əgər biz işıq diodunun şüalandırıcı hissəsini düz yox, üzgəc formasında düzəltsək, o, özündən daha çox cərəyan buraxacaq. İşıq diodunun prototipini yaratmaqla biz onun nə vaxt yanacağını, cərəyanın gücünü tədricən artıracağını başa düşmək istəyirdik. Bunun əvəzinə o, getdikcə daha da parlaq oldu", - deyə Babak Nikoobaxt bildirib.

Belə ki, "üçölçülü" işıq diodu klassik işıq diodlarından təqribən min dəfə çox bənövşəyi və ultrabənövşəyi işıq yaratdı. Müşahidələr göstərdi ki, cərəyanın gücü müəyyən həddə qədər artırıldıqda işıq diodu alimlərin müdaxiləsi olmadan lazer şüası buraxmağa başladı. Bu da müvafiq lazerlərin mikroçip və digər miniatür qurğulara yerləşdirilməsi üçün böyük perspektivlər yaradır.

## Avqust ayının 26-dan sentyabrın 1-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 188 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 60 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 182, o cümlədən borclu şəxs qismində axtarışda olan 88 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 15 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 18 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 124 fakt müəyyən edilmişdir.

# Hayların "gerçək" tarixi

"Bizim qoşunların Azərbaycanı tutmasından bir qədər sonra mənim hüzuruma Rusiyaya köçürülməyə icazə üçün erməni və bu vilayətdəki başqa məzhəbə qulluq edən xristianlardan olan deputatlar gəlməyə başladılar. Boş qalmış torpaqlara bu itaətə alışmış və din baxımından da bizə sadiq olan insanların köçürülməsindəki mənfəəti anlayaraq mən bu deputatları yaxşı qarşıladım, əzizlədim. Onları imperator həzrətlərinin lütfkar mərhəmətli himayəsi sarıdan xatircəm etdim və evlərinə buraxdım ki, gedib köçməyə hazırlaşsınlar.

Köçkünlərin İrəvan və Naxçıvan vilayətlərindəki sonrakı hərəkətləri, onlara bu vilayətlərdə məskunlaşma ərazilərinin seçilməsi, nəhayət, yeni köçkünlərin yerləşdirilməsi zamanı mümkün yardımın göstərilməsi üçün mən İrəvan müvəqqəti idarəsinə, bu idarənin rəhbərliyi altında İrəvan və Naxçıvan vilayətlərinə köçən xristianlara aid bütün işlərə, o cümlədən, sərəncamlara rəhbərlik edəcək Xüsusi Komitə təsis etmək üçün göstəriş verdim.

Həm köçürülmə, həm də məskunlaşma zamanı pul müavinətinə zəruri ehtiyacı olan kasıb ailələrə borc olaraq yardım edilməsini qərara aldım. Göstəriş verdim ki, bu tələbatlar, ümumiyyətlə, xristianların köçürülməsinin məsrəflərini qarşılamaq üçün İran hökumətindən traktat üzrə alınan məbləğdən 50 min rubl gümüş pul ayrılsın…"

***Əlahiddə Qafqaz korpusunun komandiri, general-adyutant Paskeviçin Baş Qərargah rəisi Dibiçə 1828-ci il 3 mart tarixli raportundan.***

Tərtər RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində avqustun 22-də rayon ərazisində bir avtomobildən 6000 manat dəyərində qızıl əşyalar oğurlamaqda şübhəli bilinən Bərdə rayon sakini S.İsgəndərov saxlanılmışdır.

*****

***Salyan RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Qırxçıraq kənd sakinləri - əvvəllər məhkum olunmuş E.Cəlalova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 474 ədəd çətənə kolu, 29 kiloqram 700 qram marixuana, qardaşı, əvvəllər məhkum olunmuş Əlizaminə məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 92 ədəd çətənə kolu və 5,2 kiloqram marixuana aşkar edilərək götürülmüşdür.***

*****

Masallı RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki evlərin birindən 150 manat, məişət əşyaları, ov tüfəngi, 3 ədəd patron, bir torpaq sahəsindən isə generator oğurlamaqda şübhəli bilinən Gəyəçöl kənd sakini, əvvəllər məhkum olunmuş V.Bayramov saxlanılmışdır.




*****

***Şamaxı RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyul ayından avqustun 31-dək olan müddətdə Çarxan kəndi ərazisindəki kəndli fermer təsərrüfatlarının birindən 1120 manat dəyərində damla suvarma boruları oğurlamaqda şübhəli bilinən kənd sakini V.Hacıyev saxlanılmışdır.***

*****

Yevlax RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş T.Məmmədovun kirayədə yaşadığı evin həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 149 ədəd çətənə kolu, evə baxış zamanı isə 1,3 kiloqrama yaxın marixuana və 1 ədəd elektron tərəzi aşkar edilərək götürülmüşdür.

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10156
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:30
Qiyməti 40 qəpik